AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *AZƏRBAYCAN RESPUBLİKASININ NƏQLİYYAT NAZİRLİYİNİN QƏRARI* |
| Qəbul edildiyi tarix | *20.06.2013* |
| Qeydiyyat nömrəsi | *06/Q* |
| Adı | *“Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in təsdiq edilməsi haqqında* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *30.06.2013* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *110.020.040* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *15201306200006* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *29.06.2013* |

“Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi

**qərara alır:**

1. “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament” təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsinə (Aydın Süleymanlı) tapşırılsın ki, bu qərar 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Bu qərarın icrasına nəzarət nazir müavini Musa Pənahova həvalə edilsin.

Nazir Ziya Məmmədov

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2013-cü il 20 iyun tarixli 06/Q nömrəli qərarı ilə təsdiq edilmişdir

# Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament

## 1. Ümumi müddəalar

1.1. Elektron xidmətin adı: Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu.

1.2. Elektron xidmətin məzmunu: avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə elektron xidmət qaydalarını müəyyən edir.

1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:
1.3.1. "Avtomobil nəqliyyatı haqqında" 2008-ci il 1 aprel tarixli 556-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanununun 13-cü, 14-cü, 15-ci, 27.3-cü, 50.5-ci və 59-cu maddələri;
1.3.2. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanının 2.2-ci yarımbəndi;
1.3.3. "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əlavə 2 "Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri"nin 35-ci hissəsi;
1.3.4. "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;
1.3.5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 20 may tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş "Sərnişin və yük daşımaları üçün avtonəqliyyat vasitəsinə lisenziya kartı verilərkən, habelə lisenziya kartı verildikdən sonra rübdə bir dəfə həmin avtonəqliyyat vasitəsinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğunun yoxlanılması və həmin yoxlamanın aparılması Qaydası"nın 1-ci və 2-ci hissələri;
1.3.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları" və "Elektron xidmət növlərinin Siyahısı"nın 16.1-ci bəndi.

1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı: Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi (bundan sonra - Nəqliyyat Nazirliyi).

1.5. Elektron xidmətin digər icraçıları:

1.5.1. Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (bundan sonra - Dövlət Avtomobil Nəqliyyatı Xidməti) Aparatı;
1.5.2. Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələri, o cümlədən:

Bakı regional şöbəsi
Gəncə regional şöbəsi
Quba regional şöbəsi
Şirvan regional şöbəsi
Lənkəran regional şöbəsi
Yevlax regional şöbəsi
Şəki regional şöbəsi
Göyçay regional şöbəsi
Sumqayıt regional şöbəsi
Ucar regional şöbəsi
Şəmkir regional şöbəsi
Tovuz regional şöbəsi
Beyləqan regional şöbəsi
Cəlilabad regional şöbəsi
Şamaxı regional şöbəsi
Mingəçevir regional şöbəsi

1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi: qismən.

1.7. Elektron xidmətin icra müddəti: “Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar”ın 2.5-ci bəndinə müvafiq olaraq təqdim olunmuş sənədlərdə çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda müraciət qeydə alındığı gündən başlayaraq 15 gündən gec olmayaraq lisenziya verilməsi haqqında qərar qəbul edilir.

1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi: Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılığın (lisenziyanın) verilməsi.

2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. Elektron xidmətin növü: interaktiv.

2.2. Elektron xidmət üzrə ödəniş: ödənişli.
2.2.1. “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli, 782 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əlavə 2 “Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növlərinin siyahısı və həmin fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri”nin 35-ci hissəsinə uyğun olaraq:
2.2.1.1. şəhərdaxili (rayondaxili) sərnişin daşımaları – 150 manat;
2.2.1.2. şəhərlərarası (rayonlararası) sərnişin daşımaları -150 manat;
2.2.1.3. beynəlxalq sərnişin daşımaları -150 manat;
2.2.1.4. taksi minik avtomobilləri ilə sərnişin daşımaları - 150 manat;

2.2.1.5. ölkədaxili yük daşımaları -150 manat;
2.2.1.6. beynəlxalq yük daşımaları -200 manat.

Dövlət rüsumunun ödənilməsi üçün bank rekvizitləri:
Benifisiar (alan) bank
Adı: Dövlət Xəzinədarlığı Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesab: AZ41NABZ01360100000000003944
S.W.I.F.T. Bik: CTREAZ22
Alan müştəri
Adı: Bakı şəhəri Vergilər Departamenti
Hesab № 2117131
VÖEN: 1400305751
Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi
VÖEN: 9900003051

Ödəmə üsulu: bank, poçt, plastik kart, nağd və ya internet vasitəsi ilə.
2.2.2. Təminatçı elektron xidmətin göstərilməsi üçün ödənişin real vaxt rejimində elektron formada həyata keçirilməsi imkanını təmin etməlidir.

2.3. Elektron xidmətin istifadəçiləri: fiziki və hüquqi şəxslər.

2.4. Elektron xidmətin təqdim olunma yeri:
www.e-gov.az; www.e-transport.gov.az

2.5. Elektron xidmət barədə məlumatlandırma:
İnternet ünvanı: www.mot.gov.az ; www.e-transport.gov.az
Elektron poçt: info.licenses@mot.gov.az
Telefon: (+99412) 499-67-83

2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:

2.6.1. ərizə (reqlamentə 1 nömrəli əlavə). Ərizədə aşağıdakılar öz əksini tapmalıdır:
- hüquqi şəxslər üçün - adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, hesablaşma hesabının nömrəsi və bankın adı, fəaliyyət növü;
- fiziki şəxslər üçün - adı, atasının adı, soyadı, şəxsiyyət vəsiqəsinə dair məlumatlar (seriya, nömrə, nə vaxt və kim tərəfindən verilmişdir, ünvanı), fəaliyyət növü;
2.6.2. hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarışının surəti;
2.6.3. elektron xidmət istifadəçisinin vergi orqanları tərəfindən qeydiyyata alınması haqqında müvafiq sənədin surəti;
2.6.4. mülkiyyətində və digər qanuni əsaslarla sərəncamında olan avtonəqliyyat vasitələrinin ümumi və növlər üzrə sayı haqqında məlumat (reqlamentə 2 nömrəli əlavə);
2.6.5. sərnişin və ya yük daşımaları üçün istifadə olunması nəzərdə tutulmuş avtonəqliyyat

vasitələrinin hər biri üçün müvafiq hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.) hüququnu təsdiq edən sənədlərin, habelə həmin avtonəqliyyat vasitələrinin *qanunla müəyyən edilmiş hallarda* texniki baxışdan keçdiyi haqda məlumatın göstərildiyi dövlət qeydiyyatı şəhadətnaməsinin surəti;[1]
2.6.6. sürücülərin müvafiq kateqoriyalı sürücülük vəsiqəsinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda zəruri iş stajı və ya sürücülük təcrübəsi barədə təsdiqedici sənədlərin surəti;
2.6.7. ümumi istifadədə olan sərnişin avtonəqliyyat vasitələrinin, habelə beynəlxalq yük daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinin sürücülərinin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədlərin surətləri;
*2.6.8. avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin və qanunla nəzərdə tutulmuş hallarda avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə icbari sığorta şəhadətnaməsinin surəti, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsinin surəti;*[2]
2.6.9. lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd (lisenziya verilməsindən imtina edilmədikdə təqdim edilir).

Ərizə forması xidmətin təqdim edildiyi internet ünvanında (http:// www.e-gov.az və ya http:// www.e-transport.gov.az) doldurulur, tələb olunan sənədlərin skan edilmiş surətləri elektron formada əlavə edilərək göndərilir.

3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.2. İnteraktiv elektron xidmətlər üçün sorğu:

3.2.1. sorğunun formalaşdırılması: ərizə forması elektron xidmətin təqdim edildiyi internet ünvanından (http:// www.e-gov.az və ya http:// www.e-transport.gov.az) yüklənərək doldurulur və istifadəçi tərəfindən bu reqlamentin 2.6-cı bəndində tələb olunan sənədlərin surətləri ilə birlikdə təqdim edilir;

3.2.2. sorğunun qəbulu: sorğu elektron xidmətlər bölməsinə daxil olduğu tarixdə qeydə alınır və sənədin qəbul edildiyi barədə istifadəçiyə bildiriş göndərilir.

3.3. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:

3.3.1. sorğunun yerinə yetirilməsindən imtina halları: göndərilən sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə istifadəçinin elektron poçt ünvanına 5 gündən gec olmayaraq bildiriş göndərilir. İstifadəçi tərəfindən çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar göndərildikdən sonra onlara 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.
Lisenziyanın verilməsindən yalnız qanunla nəzərdə tutulmuş hallarda imtina oluna bilər və bu imtinadan qanunvericiliyə uyğun olaraq inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər. İstifadəçiyə lisenziya verilməsindən imtina edildikdə, bu barədə onun elektron poçt ünvanına imtinanın səbəbləri göstərilməklə 5 gündən gec olmayaraq məlumat göndərilir;

3.3.2. sorğunun qəbulu: çatışmazlıqlar və ya imtina üçün əsas olmadığı halda sorğu qəbul edilir.

3.4. Sorğunun icrası:

3.4.1. ardıcıl hər bir inzibati əməliyyat, o cümlədən məsul struktur bölmə və inzibati əməliyyatın yerinə yetirilmə müddəti haqqında məlumat:

| № | İnzibati əməliyyat | Məsul struktur bölmə haqqında məlumat | İnzibati əməliyyatın yerinə yetirilmə müddəti |
|---|---|---|---|
| 1. | Müraciət Dövlət Avtomobil Nəqliyyatı Xidməti tərəfindən qeydiyyata alınır və baxılması üçün müvafiq struktur bölməsinə göndərilir. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Ümumi sektoru | 1 gün |
| 2. | Təqdim olunmuş sənədlərin tamlığı, düzgünlüyü yoxlanılır və çatışmazlıqlar aşkar edildikdə onlar aradan qaldırılır. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Lisenziya və fərqlənmə nişanlarının verilməsi təşkili şöbəsi | 3 gün |
| 3. | Lisenziyalaşdırmaya təqdim edilmiş avtonəqliyyat vasitələrinin texniki, istismar, təhlükəsizlik və ekoloji tələblərə uyğunluğu yoxlanılır və yoxlamanın nəticəsi barədə müvafiq sənəd tərtib edilir. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Təminatlı texniki xidmətə nəzarət və texniki müayinə şöbəsi | 2 gün |
| 4. | Sənədlər Dövlət Avtomobil Nəqliyyatı Xidmətində ümumiləşdirilir və Xidmətin rəyini əks etdirən qoşma məktubla Nəqliyyat Nazirliyinə göndərilir. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Lisenziya və fərqlənmə nişanlarının verilməsi təşkili şöbəsi | 1 gün |
| 5. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətindən daxil olan sənədlərin qanunvericiliyin müddəalarına uyğunluğu yoxlanılır.<br>Dövlət rüsumunun ödənilməsi və ödənişi təsdiq edən sənədin skan olunmuş surətinin Nəqliyyat Nazirliyinə təqdim edilməsi ilə bağlı istifadəçinin elektron poçt ünvanına bildiriş göndərilir. | Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziya şöbəsinin Lisenziya sektoru | 3 gün |

| | | | |
|---|---|---|---|
| 6. | Dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd təqdim edildikdən sonra lisenziyanın verilməsi ilə bağlı sərəncam layihəsi hazırlanaraq nəqliyyat nazirinə təqdim edilir, lisenziya blankları rəsmiləşdirilir və Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə göndərilir. | Nəqliyyat Nazirliyinin Nəqliyyatda əlaqələndirmə və lisenziya şöbəsinin Lisenziya sektoru | 2 gün |
| 7. | Rəsmiləşdirilmiş xüsusi razılıq (lisenziya) blankı Dövlət Avtomobil Nəqliyyatı Xidməti və Xidmətin Regional bölmələri tərəfindən lisenziya sahiblərinə təqdim edilir. | Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Lisenziya və fərqlənmə nişanlarının verilməsi təşkili şöbəsi | 2 gün |

3.4.3. İnzibati əməliyyatda iştirak edən digər dövlət orqanı haqqında məlumat: yoxdur;

3.4.4. inzibati prosedurun nəticəsi və onun verilməsi qaydası: Çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda ərizəçiyə xüsusi razılığın (lisenziyanın) verilməsindən imtina edilməməsi barədə bildiriş göndərilir. Ərizəçi bildirişi aldıqdan sonra lisenziya verilməsinə görə dövlət rüsumunun ödənildiyini təsdiq edən sənədi təqdim edir. Bundan sonra xüsusi razılıq (lisenziya) verilməsi barədə sərəncam qəbul edilir və xüsusi razılıq (lisenziya) blankı rəsmiləşdirilərək birbaşa və ya poçt rabitəsi vasitəsilə istifadəçiyə təqdim olunur, həmçinin skan edilməklə elektron formada istifadəçiyə göndərilir.

3.5. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:

3.5.1. nəzarət forması: kargüzarlıq;

3.5.2. nəzarət qaydası: Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 935 nömrəli Fərmanı iə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, idarə, təkilat və müəssisərində kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada.

3.6. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:

3.6.1. istifadəçinin şikayət etmək hüququ haqqında məlumat: istifadəçilər xüsusi razılığın (lisenziyanın) verilməsinə dair qəbul edilmiş qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən (hərəkətsizliyindən) subordinasiya baxımından yuxarı inzibati orqana və məhkəməyə şikayət edə bilərlər;

3.6.2. şikayətin əsaslandırılması və baxılması üçün lazım olan informasiya: inzibati orqana verilən şikayət "İnzibati icraat haqqında" 2005-ci il 21 oktyabr tarixli, 1036-IIQ nömrəli Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə, məhkəməyə verilən şikayət Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olmalıdır;

3.6.3. **ş**ikay**ə**tin bax**ı**lma müdd**ə**ti: inzibati orqana verilən şikayətə “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır. Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

Azərbaycan Respublikasının
Nəqliyyat Nazirliyinə [3]
Daşıyıcı: ______________________________

______________________________________

ünvan: ________________________________

______________________________________

______________________________________

Telefon: ____________________ tərəfindən

# ə R İ Z ə

Sizdən xahiş edirəm ki, ______________________________
(daşıma növü)

______________________________________________________

həyata keçirməyə xüsusi razılıq (lisenziya) verəsiniz.

1. Tələb olunan sənədlərin surətləri ərizəyə əlavə olunur:

______________________________________________________
(hüquqi şəxslər üçün - təşkilati-hüquqi forması, hesablaşma hesabının nömrəsi və bankın adı; fiziki şəxslər

______________________________________________________
üçün - şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, nə vaxt və kim tərəfindən verilməsi haqqında məlumat)

- hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi;
- ərizəçinin vergi orqanları tərəfindən qeydiyyata alınması haqqında müvafiq sənəd (VÖEN);
- avtonəqliyyat vasitələrinin siyahısı;
- sərnişin və ya yük daşımaları üçün istifadə olunması nəzərdə tutulmuş avtonəqliyyat vasitələrinin hər biri üçün müvafiq hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.) hüququnu təsdiq edən sənədlər, habelə həmin avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçdiyi haqda məlumatın göstərildiyi dövlət qeydiyyatı şəhadətnaməsi;
- sürücülərin müvafiq kateqoriyalı sürücülük vəsiqəsi və qanunvericiliklə nəzərdə tutulmuş hallarda zəruri iş stajı və ya sürücülük təcrübəsi barədə təsdiqedici sənədlər;
- qanunvericiliklə nəzərdə tutulmuş hallarda sürücülərin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədlər;
- avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin və qanunla nəzərdə tutulmuş hallarda avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin (şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası üzrə icbari sığorta şəhadətnaməsi, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqaviləsi.

2. Lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd ərizəyə əlavə edilmiş digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim ediləcəkdir.

Qoşma: ______vərəq.

M.Y.

__________ (imza) ____________________ (adı soyadı)

____________ (tarix)

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2013-cü il 20 iyun tarixli 06/Q nömrəli qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”ə 2 nömrəli əlavə

______________________________________________

(hüquqi şəxsin adı, fiziki şəxsin soyadı, adı, atasının adı)

istifadə etdiyi avtonəqliyyat vasitələrinin

S İ Y A H I S I

| Sıra №-si | Avtonəqliyyat vasitəsinin | | | | | | | | Mülkiyyət hüququ (balansda, şəxsi, icarə, etibarnamə və s.) | İstifadə hüququnun müddəti | Daşımanın həyata keçirildiyi ərazi, marşrutun istiqaməti, №-si |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | markası, modeli | növü (avtobus, minik, yük) | dövlət qeydiyyat nişanı | buraxılış ili | avtobusun | | yük avtomobilinin | | | | |
| | | | | | ümumi sərnişin tutumu (nəfər) | oturacaq yerlərinin sayı (ədəd) | yük götürmə qabiliyyəti (ton) | icazə verilən maksimal kütləsi (ton) | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |
| | | | | | | | | | | | |

M.Y.

______________________________________________

(ərizəçinin imzası, adı və soyadı)

[1] Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 12/QN nömrəli Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201410010012, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 09 oktyabr 2014-cü il) ilə “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in 2.6.5-ci yarımbəndində “texniki baxışdan” sözlərindən əvvəl “qanunla müəyyən edilmiş hallarda” sözləri əlavə edilmişdir.

[2] Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 12/QN nömrəli Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201410010012, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 09 oktyabr 2014-cü il) ilə “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in 2.6.8-ci yarımbəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2.6.8. avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyətinin icbari sığorta şəhadətnaməsinin surəti;~~

[3] Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 12/QN nömrəli Kollegiyası Qərarı (Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201410010012, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 09 oktyabr 2014-cü il) ilə “1 nömrəli əlavə” yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin 2013-cü il 20 iyun tarixli 06/Q nömrəli qərarı ilə təsdiq edilmiş “Avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament”ə 1 nömrəli əlavə~~

~~Azərbaycan Respublikasının~~
~~Nəqliyyat Nazirliyinə~~

~~Daşıyıcı:~~ ____________________

~~ünvan:~~ ____________________

~~Telefon:~~ ____________________ ~~tərəfindən~~

~~Ə R İ Z Ə~~

~~Sizdən xahiş edirəm ki,~~ ____________________
~~(daşıma növü)~~

~~həyata keçirməyə xüsusi razılıq (lisenziya) verəsiniz.~~

~~Tələb olunan sənədlərin surətləri ərizəyə əlavə olunur:~~

~~1.~~ ____________________

(hüquqi şəxslər üçün - təşkilati-hüquqi forması, hesablaşma hesabının nömrəsi

və bankın adı; fiziki şəxslər üçün - şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, nə vaxt və

kim tərəfindən verilməsi haqqında məlumat)

2. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi;
3. Ərizəçinin vergi orqanları tərəfindən qeydiyyata alınması haqqında müvafiq sənəd (VÖEN);
4. Avtonəqliyyat vasitələrinin siyahısı;
5. sərnişin və ya yük daşımaları üçün istifadə olunması nəzərdə tutulmuş avtonəqliyyat vasitələrinin hər biri üçün müvafiq hüquqi şəxsin və ya fərdi sahibkarın mülkiyyət və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.) hüququnu təsdiq edən sənədlərin, habelə həmin avtonəqliyyat vasitələrinin texniki baxışdan keçdiyi haqda məlumatın göstərildiyi dövlət qeydiyyatı şəhadətnaməsinin surəti;
6. Sürücülərin müvafiq kateqoriyalı sürücülük vəsiqəsi və qanunvericiliklə nəzərdə tutulmuş hallarda zəruri iş stajı və ya sürücülük təcrübəsi barədə təsdiqedici sənədlər;
7. Qanunvericiliklə nəzərdə tutulmuş hallarda sürücülərin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədlər;
8. Avtonəqliyyat vasitəsi sahibinin mülki məsuliyyətinin icbari sığorta şəhadətnaməsi;
9. Lisenziya almaq üçün dövlət rüsumunun ödənildiyini təsdiq edən sənəd ərizəyə əlavə edilmiş digər sənədlərdə çatışmazlıqlar müəyyən edilmədikdə təqdim ediləcəkdir.

Qoşma: vərəq.

M.Y.

(imza) (adı soyadı)

(tarix)